COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

ACFC/SR/IV(2017)002
/Azerbaijani version/

# Fourth Report submitted by Azerbaijan pursuant to Article 25, paragraph 2 of the Framework Convention for the Protection of National Minorities

(Received on 11 January 2017)

# Azərbaycan Respublikası Hökumətinin Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" üzrə Dördüncü Dövri Məruzəsi

## Giriş

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuşdur. Konstitusiyanın 25-ci maddəsinə əsasən, dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Konstitusiyanın 44-cü ("Milli mənsubiyyət hüququ") və 45-ci ("Ana dilindən istifadə hüququ") maddələrində milli azlıqların müdafiəsinin təmin edilməsində ən zəruri prinsiplərdən olan milli mənsubiyyət və dil hüququ təsbit edilmişdir.

Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"nın, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanın" və insan hüquqları sahəsində digər əsas beynəlxalq və regional sənədlərin tərəfidir.

Qeyd ediməlidir ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onu əhatə edən yeddi rayonu Ermənistan Respublikası tərəfindən işğal olunduğu üçün Azərbaycan Respublikası bu ərazilərində Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"nın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir.

## I HİSSƏ

Üçüncü dövri məruzənin nəticələri (Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin Rəyi, Azərbaycan Respublikası Hökumətinin şərhləri və "Milli azlıqların müdafiəsi haqqında Çərçivə

Konvensiyası"nın həyata keçirilməsi üzrə qətnamə) tərcümə olunmuş, dövlət qurumları və yerli qeyri-hökumət təşkilatlar arasında yayılmışdır.

Ölkədə yaşayan milli azlıqların müdafiəsi məsələsinə multikulturalizm siyasəti çərçivəsində yanaşılır. Buna görə də milli azlıqların müdafiəsi ölkənin multikulturalizm siyasətinin qarşısında duran əsas məsələlərdən biridir.

Hesabat dövründə ölkədə milli azlıqların vəziyyətini, ümumiyyətlə ölkədəki multikultural və tolerantlıq durumunu daha da yaxşılaşdırmaq istiqamətində görülən işlərdən aşağıdakıları qeyd etmək lazımdır:

1. Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 28 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi xidməti yaradılmışdır;
2. Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) yaradılmışdır;
3. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir;
4. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 11 mart tarixli Sərəncamı ilə "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"ı təsdiq edilmişdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi xidmətinin əsas vəzifələri ölkədə mövcud olan etnik-mədəni müxtəlifliyin qorunub saxlanması, ölkəmizdəki milli azlıqların hüquq və azadlıqlarının dövlət təminatının və milli azlıqlarla bağlı dövlət siyasətinin həyata keçirilməsidir. Bu məqsədə nail olmaq istiqamətində həyata keçirilən işlər sırasında Dövlət Müşavirliyi xidməti BBMM ilə əməkdaşlığa xüsusi önəm verir.

2016-cı il 11 mart tarixli Sərəncam ilə təsdiq edilmiş "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nda BBMM-in əlaqələndirici fəaliyyəti ilə bir neçə nazirliklərin və digər dövlət qurumlarının iştirakı ilə milli azlıqların müdafiəsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur, o cümlədən:

1. Mədəni müxtəliflik, tolerantlıq və konfliktlərin həllində mədəniyyətlərarası dialoqun rolu, multikulturalizmin Azərbaycan modeli və dünya multikulturalizm modelləri mövzularında respublika və beynəlxalq miqyaslı elmi-nəzəri, elmi-

praktik konfransların, seminarların, dəyirmi masaların, mühazirələrin, ədəbi-bədii toplantıların keçirilməsi;

2. Teatr və musiqi kollektivlərinin milli azlıqların yaşadığı bölgələrə qastrol səfərlərinin təşkili;

3. "Azərbaycan-doğma diyar" devizi altında milli azlıqların V incəsənət festivalının bölgələrdə keçirilməsi;

4. Azərbaycanda yaşayan milli azlıqların musiqi yaradıcılığından ibarət CD-lərin buraxılması, onların məişət və adət-ənənələrinə aid sənədli filmin xarici dillərdə hazırlanması və foto-kataloqun nəşri və s.

25 iyun 2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyinin və Xaçmaz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xaçmaz rayonunda "Multikultural dəyərləri yaşadaq" adlı birinci beynəlxalq festival keçirilmişdir. Tədbir çərçivəsində ölkənin 10-dan artıq rayonunu təmsil edən məktəblilərin rəsm əsərlərindən ibarət "Azərbaycan – dünya multikulturalizminin ünvanlarından biri" adlı rəsm sərgisi, milli azlıqların mətbəx nümunələrinin nümayiş edildiyi kulinariya sərgisi, milli azlıqların folklor musiqisindən ibarət "Bizim Vətənimiz Azərbaycandır" adlı geniş konsert proqramı təqdim olunmuş, eyni zamanda, "Multikulturalizmə alternativ yox" adlı elmi-praktik konfrans keçirilmişdir.

28-30 iyun 2016-cı ildə Bakı şəhərində "Azərbaycan – doğma diyar" devizi ilə Milli Azlıqların V Respublika Festivalı, eyni zamanda milli azlıqların ölkənin 14 rayonunu təmsil edən 30-dan artıq musiqi-folklor kollektivinin iştirakı ilə Heydər Əliyev Sarayında qala-konsert keçirilmişdir. Həmçinin, tədbir çərçivəsində iyunun 30-da milli azlıqların həyat və məişətini, etnoqrafiyasını əks etdirən "Vahid ailədə" adlı foto-sərgi nümayiş etdirilmiş, "Azərbaycanda yaşayan milli azlıqların mahnı və rəqs folkloru nümunələri" diskinin və fotokataloqunun Azərbaycan, ingilis, rus, fransız və alman dillərində təqdimatı keçirilmiş, "Multikulturalizmin Azərbaycan modeli" mövzusunda "dəyirmi masa" təşkil edilmişdir.

2015-ci il 24 fevral tarixində Bakı Slavyan Universitetinin nəzdində "Azərbaycan Multikulturalizmi" kafedrası yaradılmışdır. Kafedranın yaradılmasının əsas məqsədlərindən biri ölkədə multikultural durumun təkmilləşdirilməsi ilə bağlı elmi-praktiki tövsiyələrin işlənib hazırlanmasıdır. Kafedranın fəaliyyətinin mühüm istiqamətlərindən biri də "Multikulturalizmə giriş" və "Azərbaycan Multikulturalizmi" fənlərini tədris edəcək müəllimlərin hazırlanmasıdır. Bu məqsədlə mütəmadi olaraq hazırlıq kursları təşkil olunur. Hal–hazırda bakalavr pilləsində

“Multikulturalizmə giriş” və magistr pilləsində “Azərbaycan Multikulturalizmi” fənnləri ölkədaxili 28 universitetdə tədris olunur. Bundan başqa, “Azərbaycan Multikulturalizmi” fənni 12 xarici dövlətin universitetlərində magistr pilləsində tədris olunur.

2014-cü il 1–2 sentyabr tarixində Azərbaycan Respublikası Hökuməti Avropa Şurası ilə birgə Bakıda “Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə” mövzusunda mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünü keçirmişdir. Bakıda keçirilmiş Avropa Şurasının mübadilə görüşünə dünyanın 18 ölkəsindən 99 ekspert, dinşünas, din xadimi və vətəndaş cəmiyyəti qurumlarının təmsilçiləri, o cümlədən ölkəmizin çoxsaylı dövlət və ictimaiyyət nümayəndələri qatılmışlar.

Hazırkı məruzənin hazırlanması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 iyun tarixli Sərəncamı ilə İşçi Qrup yaradılmışdır. İşçi Qrupa Xarici İşlər Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Təhsil Nazirliyinin, Mədəniyyət və Turizm Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səhiyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyinin yüksək vəzifəli şəxsləri daxil edilmişdir. Həmçinin, məruzənin hazırlanması zamanı insan hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən yerli qeyri-hökumət təşkilatlarının nümayəndələri də iştirak etmişdirlər.

Hazırkı məruzə Avropa Şurası Nazirlər Komitəsinin 1169-cu iclasında qəbul edilən “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyasının 25-ci maddəsinə uyğun olaraq “Dördüncü dövri məruzə üzrə dövlətlərin təqdim edəcəyi hesabatların strukturu”na uyğun tərtib olunmuşdur.

Hesabat dövri ərzində Bakı məktəblərində məlumatlandırma və maarifləndirmə işləri aparılmış və aparılmağa davam etdirilməkdədir. Həyata keçirilən “Biz hamımız insanıq və hamımız eyniyik” adlı layihə çərçivəsində Bakının etnik müxtəlifliyi ilə fərqlənən 46, 138, 245, 23 saylı məktəblərində, 160 saylı Klassik Gimnaziyasında və “Tərəqqi” humanitar - texniki liseyində multikulturalizm və tolerantlıqla bağlı informasiya görüşləri və interaktiv təlimlər keçirilib.

Təlimlərin əsas məqsədi Azərbaycanda tolerantlıq və multikulturalizmlə bağlı məktəblilərə məlumat vermək, etnik, dini, irqi, mədəni mənsubiyyətindən

asılı olmayaraq bütün milli azlıqların sülh şəraitində yaşamalarının vacibliyini göstərməkdir.

Təlimlərdə iştirak edən məktəblilər ölkə Konstitusiyası, Azərbaycançılıq ideologiyası, “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyası ilə tanış edilir və ölkəmizdə pluralist və demokratik cəmiyyətin inkişafı, milli azlığa mənsub olan hər bir şəxsin etnik, mədəni, dil və dini özünüməxsusluğuna hörmət etməklə yanaşı, həm də bu özünəməxsusluğu ifadə etmək, qoruyub saxlamaq və inkişaf etdirmək üçün münasib şəraitin yaradıldığı və daha da yaxşılaşdırılması istiqamətində görülən işlər haqqında məlumatlandırılır.

Təlim iştirakçılarına Konvensiyanın 14-cü maddəsi haqqında, milli azlıqların dilinin tədrisi ilə bağlı məlumat verilir. Təlimlər zamanı, məktəblilərə Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa uyğun olaraq vətəndaşların irqindən, milliyətindən, dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, sağlamlıq vəziyyətindən, sosial və maddi vəziyyətindən, peşəsindən, sosial mənsubiyyətindən, yaşayış yerindən, siyasi baxışlarından və əvvəlki məhkumluq halından asılı olmayaraq təhsil almaq hüquqlarının olduğu çatdırılmışdır.

Təlimlərin Bakı ilə yanaşı növbəti tədris ilində coğrafi və etnik müxtəlifliyi ilə zəngin olan, milli azlıqların kompakt yaşadıqları şimal, şimal-qərb və cənub bölgələrində də keçirilməsi nəzərdə tutulur. Keçiriləcək təlimlərdə müxtəlif milli azlıqlardan olan şagirdlər, müəllimlər və valideynlər iştirak edəcəklər.

Planlaşdırılmış tədbirlərə milli azlıqların təşkil etdiyi QHT-lərin, assosiasiyaların, mədəni mərkəzlərin, məktəblərin nümayəndələrinin, «Vətən» Axısqa türklərinin, “Samur” ləzgi milli mədəni mərkəzinin, “Birlik” və “Rus” icmalarının, dağ yəhudilərinin icmasının, tat mədəniyyət mərkəzinin, «Turqan-tel» tatar mədəniyyət cəmiyyətinin, Ukrayna cəmiyyətinin, «Ronai» kürd mədəni mərkəzinin, gürcü cəmiyyətinin, ingiloy icmasının, talış mədəniyyət mərkəzinin, avar cəmiyyətinin, «Kapelhaus» alman mədəniyyət icmasının, udin mədəniyyət mərkəzinin, «Polonia» polşa mədəniyyət mərkəzinin, «Buduq» mədəniyyət mərkəzinin, saxur mədəniyyət mərkəzinin və digərlərinin tədbirlərə qonaq qismində dəvət olunması, onlarla milli dillərin və mədəni irsin qorunması və tədrisi, təhsil resursları haqqında fikir mübadiləsinin aparılması nəzərdə tutulur.

Təlimlərdə Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, BBMM, “Böyük İpək Yolu” Beynəlxalq Gənclər Birliyi, Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, “Yaşıl qələm” Müəllim və Jurnalistlərin Təhsil Şəbəkəsi,

"Yaşlıların təhsili" Assosiasiyasının nümayəndələrinin təlimçi və ekspert qismində iştirakı gözlənilir.

## II HİSSƏ

Milli azlıqlara mənsub konkret şəxslərin və onların müdafiəçilərinin (vəkillərinin) hüquqlarının pozulması ilə bağlı iddia olunan məlumatlar Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən aparılmış araşdırmalar nəticəsində öz təsdiqini tapmamış, ümumiyyətlə Azərbaycan Respublikasında yaşayan hər hansı miili azlığın və ya onların nümayəndələrinin hüquqlarına dövlət orqanları tərəfindən ayrı-seçkilik zəminində qəsd olunması, habelə söz və toplaşmaq azadlığı da daxil olmaqla əsas hüquq və azadlıqlarından istifadə etmiş şəxslərin fikirlərinə görə təqib edilməsi və ya kiminsə qanunsuz azadlıqdan məhrum olunması, məhkəmənin qərarı olmadan həbsdə saxlanılması halları müəyyən edilməmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 61.1.6-ci maddəsi cinayətin milli, irqi və ya dini düşmənçilik, dözümsüzlük zəminində törədilməsini digər hallarla yanaşı, cəzanı ağırlaşdıran hal kimi nəzərdə tutur; 154.1-ci maddə isə digər əsaslarla yanaşı, etnik mənsubiyyət, dil və dini əqidəyə əsaslanan ayrı-seçkiliyi qadağan edir; 167-ci maddədə qanunsuz olaraq dini ayinlərin icrasına mane olma qadağan edilir; 283-cü maddə milli, irqi və ya dini duşmənçiliyin salınmasını, milli ləyaqətin alçaldılmasını və ayrı-seçkiliyi qadağan edir. Cinayət Məcəlləsinin 103-cü maddəsində soyqırımı cəzalandırılır; 111-ci maddəsində hər hansı bir irqi qrupu əsarət altında saxlamaq ucun digər irqi qrup tərəfindən üstünlüyü təmin və təşkil etmək (aparteid) məqsədilə aparılan fəaliyyətlərə qarşı cəza tədbirləri müəyyən edilir; 120-ci maddənin 2.12-ci hissəsində (adam öldürməni ağırlaşdıran hallar) milli, irqi və ya dini düşmənçilik və ya nifrət səbəbindən adam öldurulməsi hallarına qarşı daha ağır cəza müəyyənləşdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 2-ci fəsli əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi üzrə tədbirlərə həsr edilmiş, bununla əlaqədar etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətin mütəmadi davam

etdirilməsi ölkənin aidiyyəti dövlət orqanları qarşısında bir vəzifə kimi tapşırılmışdır.

**Konvensiyanın 4-cü maddəsinə dair**

Hamının qanun və məhkəmə qarşısında bərabər olması Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində öz təsbitini tapmışdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir.

Eyni zamanda həmin Məcəllənin 26-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası məhkəmələrində cinayət mühakimə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq ərazinin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. Cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarına öz ana dilindən istifadə etmək hüququnu izah etmək, ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək kimi hüquqlarını təmin etməlidir.

Cinayət prosesini həyata keçirən orqan təqdim edilməli sənədləri müvafiq şəxslərə cinayət mühakimə icraatının aparıldığı dildə təqdim edir. Cinayət mühakimə icraatının aparıldığı dili bilməyən müvafiq şəxslərə təqdim edilməli sənədlər onların ana dilində və ya onların bildiyi başqa dildə təqdim edilir.

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” 2012-ci il 22 may tarixli Qanun qəbul edilmişdir. Bu Qanun Cinayət-Prosessual Məcəllə ilə müəyyən edilmiş qaydada tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərində hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Milli azlıqların hüquqlarının müdafiəsi və ayrı-seçkiliyin aradan qaldırılması üzrə bilik səviyyəsinin artırılmasına da böyük diqqət yetirilir. “Avropa İnsan

Hüquqları Konvensiyası və Yenidən Baxılmış Avropa Sosial Xartiyasının yerli səviyyədə icra olunması ilə bağlı vəkillərin və hüquq müdafiəçilərinin bacarıqlarının artırılması" adlı iki illik (2013-2015) layihə çərçivəsində ümumilikdə 300 vəkil və 34 praktiki hüquqşünas üçün Bakı şəhəri və digər regionlarda təlimlər keçirilmişdir. Layihə çərçivəsində 2015-ci ildə 20 vəkil və praktiki hüquqşünasa Avropa İnsan Hüquqları Konvensiyasının 14-ü maddəsi – ayrı-seçkiliyin qadağan olunması mövzusunda təlim keçirilmişdir.

Həmçinin, 2014-2015-ci illər ərzində Ədliyyə Akademiyasında ilk dəfə ədliyyə orqanlarına qulluğa qəbul edilən namizədlər, ədliyyə işçiləri, hakimlər, vəkillər və digər hüquqşünaslar üçün təşkil olunan kursların proqramlarına "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı və qarşıda duran vəzifələr", "Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi", "Avropa İnsan Hüquqları Konvensiyasında ayrı- seçkiliyin qadağan olunması və milli qanunvericilik", "Avropa İnsan Hüquqları Konvensiyasına əsasən məhkumlarla rəftar" kimi mövzularda mühazirələr daxil edilərək tədris olunmuşdur. Ədliyyə Akademiyası və Avropa Şurasının təşkilatçılığı ilə 26-27 may 2016-cı il tarixlərində 24 nəfər hakim üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi (ayrı-seçkiliyin qadağan olunması)" mövzusunda təlim keçirilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə 2011 və 2013-cü illərdə qeyri-islam təmayüllü dini qurumların dini tələbatının ödənilməsi üçün müvafiq şəraitin daha da yaxşılaşdırılması, zəruri ehtiyaclarının ödənilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan qeyri-islam təmayüllü dini qurumlara  800 min manat vəsait ayrılmışdır.

Həmçinin, Prezident İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli Sərəncamına əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) 2,5 milyon manat vəsait ayrılmışdır ki, bu məbləğin də 400 min manatı ölkədə fəaliyyət göstərən qeyri-müsəlman dini icmalarına verilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 5 iyul tarixli Sərəncamı ilə ölkədəki dini konfessiyaların dəstəklənməsini və onların maddi durumunun daha da

yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə dini qurumlara maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ümumilikdə 1,8 milyon manat vəsait ayrılmışdır ki, bunun da 800 min manatı qeyri-islam təmayüllü dini qurumlara verilmişdir. Bu vəsaitlər qeyri-islam təmayüllü dini qurumlar arasında onların təəssübkeşlərinin sayı nəzərə alınmaqla bölüşdürülmüşdür.

Keçən dövr ərzində ölkədə təkcə məscid və ziyarətgahlar deyil, kilsə və sinaqoqlar, eləcə də digər ibadət evlərinin tikilməsi, təmir-bərpa olunması Azərbaycan Respublikası Hökumətinin diqqətində olmuşdur. Ölkəmizdə milli azlıqlardan olan Dağ yəhudiləri üçün Bakı şəhərinin mərkəzində yeni sinaqoq inşa edilmiş və 2011-ci il 5 aprel tarixində onun açılışı olmuşdur. Memarlıq xüsusiyyətlərinə və ölçülərinə görə təkcə Azərbaycanda deyil, regionda digər yəhudi məbədlərindən fərqlənən sinaqoqun açılış mərasimində yüksək səviyyəli dövlət nümayəndələri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, yəhudi icmasının üzvləri, eləcə də İsrail, Rusiya və digər ölkələrdən qonaqlar iştirak etmişlər. 2011-ci il 1 iyun tarixində Qax rayonu Əlibəyli kəndində gürcü-pravoslav məbədinin – Müqəddəs Nino kilsəsinin təmirdən sonra açılış mərasimi keçirilmişdir. Bundan əlavə, udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki Çotari Alban-Udi kilsəsində təmir işləri aparılmışdır. Dövlət vəsaiti hesabına Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi tikilərək istifadəyə verilmiş və ölkə Prezidentinin iştirakı ilə 2013-cü il 15 noyabr tarixində açılışı olmuşdur.

Azərbaycan Respublikasında işçilərin əmək hüquqlarının qorunması, səmərəli əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində siyasətin həyata keçirilməsi, milli əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin maddi, mənəvi, sosial və digər həyati tələbatlarının ödənilməsi ölkədə aparılan sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir.

2006-cı il 1 iyul tarixindən etibarən ölkə ərazisində tətbiq edilən “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. Həmin Qanunun 4-cü maddəsinə əsasən sosial yardım ünvanlılıq, ədalətlilik və bərabərlik prinsipi gözlənilməklə bütün

aztəminatlı ailələrə təyin edilir. Sosial yardımın təyin olunması zamanı ailə tərkibində milliyyətindən, irqindən, mənşəyindən, dinindən, dilindən asılı olmayaraq Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan bütün şəxslər nəzərə alınır.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli Qanununa əsasən 2015-ci ilin 17 mart tarixindən etibarən aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımı 2 il müddətinə təyin olunur.

"Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə "Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli qərarı ilə təsdiq edilmişdir.

"Azərbaycan Respublikası Nazirlər  Kabinetinin 1994-cü il 15 yanvar  tarixli qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi 2015-ci ilin oktyabr ayında baxılması üçün hökumətə təqdim edilmiş və Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinə əsasən hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Ölkədə əmək pensiyası almaq hüququ olmayan şəxslərə sosial müavinətlərin təyin olunması və verilməsinin hüquqi əsasları 2006-cı il 1 yanvar tarixindən qüvvəyə minmiş "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Həmin Qanunun 3.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilər, dövlət qulluqçularına ömürlük müavinət istisna olmaqla, bu

Qanunla Azərbaycan Respublikası vətəndaşları üçün müəyyən edilmiş şərtlərdə və qaydada aylıq və birdəfəlik müavinət almaq hüququna malikdirlər.

"Sosial Xidmət" haqqında Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli Qanunu qəbul edilmişdir və bu Qanun qüvvəyə minən gündən "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ləğv edilmişdir. Qanun sosial xidmətə ehtiyacı olan Azərbaycan Respublikası vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə şamil olunur. Sosial xidmətin məqsədi şəxslərin həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir.

Qeyd olunan qanunlarda sosial müdafiə sahəsində bütün vətəndaşların bərabər hüquqlardan istifadə etməsi nəzərdə tutulmuşdur. Şəxsin etnik mənsubiyyətindən asılı olaraq hər hansı bir məhdudiyyət nəzərdə tutulmur və ayrı-seçkiliyə yol verilmir.

Əhalinin məşğulluğu və sosial müdafiəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən hər hansı ayrı-seçkiliyə, o cümlədən milli mənsubiyyətinə görə yol verilməsi qadağandır.

Əhalinin həssas qruplarının sosial-iqtisadi rifahının yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları ilə Prezident təqaüdlərinin və sosial müavinətlərin məbləği 2016-cı il 1 fevral tarixindən 10 faizdən çox artırılmışdır. Bu artımlar ölkə əhalisinin 38%-ni əhatə etmişdir.

Milli azlıqların sıx yaşadıqları regionları əhatə edən 2014-2018-ci il regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində regionlardakı infrastruktur və sosial xidmətlərin inkişafı, investisiyaların həcminin artırılması, yeni iş yerlərinin açılması və iş imkanlarının yaradılması, işlə təminatın artırılması və yoxsulluğun azaldılması üçün tədbirlər həyata keçirilir.

Qəbul edilən tədbirlər nəticəsində yoxsulluğun səviyyəsi 5%-ə endirilmişdir. Qeyri-neft sektoru 8.4% inkişaf etmişdir. 2004-2015-ci illər ərzində 68 000-dən çox iş yeri (müəssisə) açılmış və 1.4 milyon yeni iş yaradılmışdır. Sosial və infrastruktur layihələrinin gerçəkləşdirilməsi davam etdirilir. Regionlar daxil olmaqla, son illərdə 3000-ə yaxın məktəb, 600-dən çox xəstəxana tikilmiş və təmir

edilmişdir. Qeyd etmək lazımdır ki, dünya iqtisadi böhranına baxmayaraq, 2015-ci ildə ölkədə Ümum Daxili Məhsul 1.1% artmışdır.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16-cı maddəsinin 1-ci hissəsinə əsasən əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağandır.

Məşğulluq sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilatı əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edən “Məşğulluq haqqında” 2001-ci il 2 iyul tarixli Azərbaycan Respublikası Qanununun 6.2.1-ci maddəsinə müvafiq olaraq irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğunu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanlar təmin edilir

(Maddə ilə bağlı statistik məlumatlar Əlavə 1 və Əlavə 2-də).

**Konvensiyanın 5-ci maddəsinə dair**

2012-ci il 21 dekabr tarixində qəbul olunan “Mədəniyyət haqqında” Qanunun 6-cı maddəsinə əsasən Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir.

Eyni zamanda həmin Qanunun 30-cu maddəsinə əsasən Azərbaycan Respublikasında yaşayan milli azlıqların mədəniyyət nümunələri Azərbaycan Respublikasının milli mədəni sərvətlərinin tərkib hissəsidir. Azərbaycan

Respublikasında yaşayan milli azlıqların mədəni sərvətləri dövlət tərəfindən qorunur.

Mədəniyyət sahəsində dövlət tərəfindən dövlətin ərazisində yaşayan milli azlıqların mədəniyyətlərinin, hüquq və azadlıqlarının bərabərliyi, dövlətin ərazisində yaşayan milli azlıqların öz mədəniyyətlərini müəyyən etmək, qorumaq, mədəni sərvətlərini bərpa etmək, gücləndirmək və inkişaf etdirmək bərabərliyi təmin edilir.

Bununla yanaşı, BBMM milli azlıqların mədəniyyətlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində bir sıra layihələr həyata keçirmişdir:

1. BBMM dəstəyi ilə Azərbaycan xalqının qədim qəhrəmanlıq dastanı olan "Kitabi-Dədə Qorqud"un alman şərqşünası və diplomatı Henrix Fridrix fon Ditsin 1815-ci ildə alman dilinə tərcümə edərək çap etdirdiyi "Basatın Təpəgözü öldürməsi" boyu Azərbaycan dili ilə yanaşı ölkədə yaşayan etnik toplumların — xınalıq, tat, kürd, talış, erməni, udi, ləzgi və gürcü dillərinə tərcümə olunmuşdur;
2. BBMM və "Kultura plyus" İnternet televiziyası Azərbaycanda yaşayan milli azlıqlar (avar, saxur, xınalıq, udi, və ləzgi) üçün video formatda ana dili dərsləri təşkil etmişdir;
3. 2015-ci ilin 1-5 iyul tarixlərində BBMM-nin təşkilatçılığı və dəstəyi ilə Azərbaycanda yaşayan ləzgilərin, tatarların, tatların, axısqa türklərinin, kürdlərin, ingiloyların, talışların, rusların, avarların, udinlərin, saxurların nümayəndələrinin iştirakı ilə konsert proqramı təqdim olunmuşdur;
4. 2015-ci ilin oktyabr ayında Lahıcda yerli milli azlıqların folklor nümunələri nümayiş etdirilmişdir;
5. BBMM tərəfindən orta məktəblərin ibtidai sinif şagirdləri üçün udi dilində dərsliklər hazırlanır;
6. 2015-ci il və 2016-cı ilin 21 may tarixində "Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü" münasibətilə BBMM-də Azərbaycanda yaşayan milli azlıqların nümayəndələrinin iştirakı ilə Dəyirmi masa keçirilmişdir. Dəyirmi masada Azərbaycan multikulturalizminin aktual məsələləri müzakirə olunmuşdur.

Həmçinin, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun milli azlıqların mədəniyyətlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi layihələrdən aşağıdakıları qeyd etmək olar:

1. Multikulturalizmin təbliğ və təşviq olunması, ölkədə yaşayan bütün milli azlıqların milli-mənəvi dəyərlərinin qorunması;

2. Yerli və əcnəbi tədqiqatçıların Azərbaycanda yaşayan milli azlıqların kompakt yaşadıqları bölgələrə səfərlərinin, bu bölgələrdəki dini və tarixi abidələrlə tanışlığının, yerli əhali ilə görüşlərinin təşkil olunması.

**Konvensiyanın 6-cı maddəsinə dair**

Azərbaycanda tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi, eləcə də ölkədə fəaliyyət göstərən dini konfessiyalar arasında qarşılıqlı anlaşma və dialoq mühitinin möhkəmləndirilməsi Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən biridir. Mütəmadi olaraq müxtəlif konfessiyalara mənsub dini qurumlar, eləcə də milli azlıqlara məxsus dini təsisatlar arasında dözümlülük ruhu və mədəniyyətlərarası dialoqun həvəsləndirilməsi və qarşılıqlı hörmət, anlaşma və əməkdaşlığın təşviq olunması məqsədilə tədbirlər həyata keçirilir.

“2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq, dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin radikalizmə və fanatizmə alternativ kimi multikulturalizmin təbliği məqsədilə 2016-cı ilin birinci yarımilliyi ərzində DQİDK tərəfindən bir çox tədbirlər həyata keçirilmişdir.

Eyni zamanda, 2013-cü il mayın 29-da Bakı Biznes Mərkəzində II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Milli Tolerantlıq Mərkəzinin beynəlxalq təqdimat mərasimi keçirilmişdir. Milli Tolerantlıq Mərkəzi öz fəaliyyətində fərqli dini konfessiyaların birgə əməkdaşlığının təşviqinə, onların cəmiyyətə inteqrasiyasına və sosial həyatda yaxından iştirakı məsələsinə xüsusi diqqət göstərmişdir. Nümunə kimi Milli Tolerantlıq Mərkəzi tərəfindən dini icmalar üçün "Hörmət naminə birləş" layihə müsabiqəsinin keçirilməsini göstərmək olar. Bu layihə çərçivəsində sağlamlıq imkanları məhdud olan yeniyetmələrin təhsil ehtiyaclarının qarşılanması və onların ali təhsilə hazırlanması, məhbusların reabilitasiyası və onların cəmiyyətə inteqrasiyaya hazırlanması, ailənin və ailə dəyərlərinin möhkəmləndirilməsi istiqamətlərində milli azlıqların da təmsil olunduğu müxtəlif konfessiyalara mənsub olan ən azı üç dini icmanın birgə həyata keçirdiyi sosial layihələr maliyyələşdirilmişdir.

Bununla yanaşı, DQİDK-nın dəstəyi ilə “Sərhədsiz İnsan Hüquqları” beynəlxalq qeyri-hökumət təşkilatı tərəfindən milli və dini azlıqlarla bağlı

“Azərbaycanda qeyri-müsəlman azlıqlar: keçmişdən dünyəvi Azərbaycana doğru” adlı hesabat hazırlanmış və 12 noyabr 2013-cü ildə Avropa Parlamentində təqdimetmə mərasimi keçirilmişdir.

DQİDK hər zaman ölkədə yaşayan milli-dini azlıqlarla qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərmişdir. DQİDK-nin təşkilatçılığı ilə insan hüquqlarının qorunması məqsədilə müvafiq dövr ərzində dini icmalarda “İnsan hüquqları aylığı” (18 maydan-18 iyunadək), “Sülh aylığı” (21 avqustdan-21 sentyabradək) “Uşaq hüquqları aylığı” (20 oktyabrdan-20 noyabradək) çərçivələrində 200-dən artıq maarifləndirici seminar keçirilmişdir.

16 Noyabr Beynəlxalq Tolerantlıq Günü çərçivəsində sülh və insan hüquqlarının təbliği, din sahəsində dözümlülüyün, dinlərarası dialoqun gücləndirilməsi, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrinin möhkəmləndirilməsi məqsədilə “Dindarlar sülhün carçılarıdır”, “İslamda uşaq hüququna verilən dəyər”, “16 Noyabr Tolerantlıq Günü”, “Tolerantlıq: Milli kimliklə vəhdəti” mövzularında respublikanın müxtəlif şəhər və rayonlarında müvafiq tədbirlər keçirilmişdir. Tədbirlərdə dini və milli azlıqların, bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının, eləcə də dini qurumların nümayəndələrinin fəal iştirakı təmin olunmuşdur.

Digər bir mühüm beynəlxalq tədbir Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən “Azərbaycan Parisin ürəyində” layihəsi çərçivəsində 2015-ci il sentyabr ayının 8-də Parisdə baş tutmuş “Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti” adlı konfrans olmuşdur.

BBMM Nizamnaməsinin 2.1-ci bəndinə uyğun Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək adıçəkilən Mərkəzin əsas məqsədidir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”nın 14.1.4-cü yarımbəndinə uyğun olaraq informasiya cəmiyyətinin inkişafı şəraitində milli kontentin genişləndirilməsinə, ölkəmizin milli-mədəni irsinin qorunub saxlanılmasına və inkişafına, əhalinin ondan müasir texnologiyalar vasitəsilə istifadəsinə və bilik səviyyəsinin artırılmasına diqqət yetirilməsi vacibdir. Bu

sahədə əsas fəaliyyət istiqamətlərindən biri kimi milli-mədəni nailiyyətlərə, milli azlıqların adət-ənənələrinə həsr olunmuş elektron resursların yaradılması və inkişafı müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 2.4-cü bəndinə uyğun olaraq dövlət quruculuğunun digər sahələri kimi Azərbaycan Respublikasının mədəniyyət sahəsində də dövlət siyasətinin formalaşdırılması hərtərəfli mədəni-siyasi tədqiqatlara və əlaqəli innovasiyalara əsaslanır. Konsepsiyada mədəniyyət sahəsində informasiya təminatının təkmilləşdirilməsi üçün zorakılığa, sosial, irqi, milli və dini ayrı-seçkiliyə çağırışların, milli-mənəvi dəyərlərə zidd davranışların və fəaliyyətlərin təbliğinin qarşısının alınması əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir.

Dövlət qurumlarının mətbu nəşrlərində insan hüquq və azadlıqların müdafiəsinə, o cümlədən ayrı-seçkiliyin qadağan edilməsinə, sülh və dözümlülüyün təbliğinə yönəlmiş yazılar dərc edilir, müasir informasiya texnologiyalarından istifadə edilməklə Ədliyyə Nazirliyinin internet səhifəsində aidiyyəti məlumatlar yerləşdirilir.

Bununla yanaşı, Ədliyyə sistemində ictimai nəzarətin və şəffaflığın təmin edilməsi məqsədilə 22 sentyabr 2006-cı il tarixdə formalaşdırılmış nüfuzlu hüquq müdafiəçilərindən ibarət İctimai Komitədə milli azlıqların nümayəndələri təmsil olunur. Komitə üzvləri mütəmadi olaraq cəzaçəkmə müəssisələrinə baş çəkir, müxtəlif kateqoriyalı məhkumlarla o cümlədən milli azlıqlarla görüşlər keçirir, onların saxlanma şəraiti, ərzaq və maddi-məişət, tibbi təminatı, islah olunmaları üçün görülən tədbirlərlə, xarici aləmlə əlaqələri ilə tanış olur və həmin şəxslərə hüquqi yardım göstərir.

Ədliyyə Nazirliyində fəaliyyət göstərən daimi monitorinq qrupu ədliyyə orqanlarında, məhkəmələrdə işin təşkili vəziyyəti ilə tanış olur, ictimai rəyi öyrənir və vətəndaşlarla anonim anket sorğuları apararaq vətəndaşların, o cümlədən milli azlıqların hüquqlarının həyata keçirilməsinə öz töhfəsini verir.

Avropa ittifaqının "Ədliyyə sahəsində islahatlara dəstək" proqramı çərçivəsində Ədliyyə Akademiyasında yaradılmış hüquq klinikasında əhalinin aztəminatlı təbəqəsinə, əlillərə, məcburi köçkünlərə, o cümlədən milli azlıqların nümayəndələrinə pulsuz hüquqi yardım göstərilir.

Bundan başqa, Ədliyyə nazirliyi tərəfindən bölgələrdə yaradılmış regional hüquqi məsləhət xidmətləri mərkəzlərində əhalinin müxtəlif təbəqələri pulsuz hüquqi yardımla təmin olunurlar.

Cinayət Məcəlləsinin 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsinə əsasən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə cinayət məsuliyyətinə səbəb olur.

Eyni zamanda Cinayət Məcəlləsinin 103 (Soyqırım), 109 (Təqib), 154 (Bərabərlik hüququnu pozma), 167 (Dini ayinləri icra etməyə mane olma), 168-ci (Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) maddələrində milli azlıqların hüquqlarının qorunmasına xidmət edən müddəalar əks olunmuşdur.

2011-2015-ci illər üzrə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən Cinayət Məcəlləsinin 103 (Soyqırımı), 109 (Təqib), 154 (Bərabərlik hüququnu pozma), 168 (Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) maddələrinə əsasən heç bir şəxs məhkum olunmamışdır. Eyni zamanda bildiririk ki, həmin dövr ərzində CM-nın 167-ci (Dini ayinləri icra etməyə mane olma) maddəsinə əsasən 1 şəxs, 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsinə əsasən isə 16 şəxs məhkum olunmuşdur.

**Konvensiyanın 7-ci maddəsinə dair**

Fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı və birləşmək hüququ, həmçinin azad sahibkarlıq hüququ Azərbaycan Respublikası Konstitusiyasının 47, 48, 49, 58 və 59-cu maddələrində öz təsbitini tapmışdır.

Milli azlıqların Azərbaycanda fəaliyyət göstərən başlıca təşkilatları, milli mədəniyyət mərkəzləri aşağıdakılardır:

"Ronayi" Kürd Mədəniyyət Mərkəzi, "Samur" Ləzgi Milli Mərkəzi, Ləzgi Mifologiyasını Öyrənmə Mərkəzi, Ləzgi Gənclər Mərkəzi, "Dağıstan" Mədəniyyət Mərkəzi, Azərbaycanda Ukrayna İcması, “Saxur" Mədəniyyət Mərkəzi, Talış Mədəniyyət Mərkəzi, "Orayin" Udi Mədəniyyət Mərkəzi, Alban-Udi xristian dini icması, Avar Milli Mədəniyyət Mərkəzi, "Lahıc" Xeyriyyə Cəmiyyəti, "Azəri" Tat

Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması İctimai Birliyi, Azərbaycan Slavyanlarının Mədəniyyət Mərkəzi, "Sodrujestvo" Cəmiyyəti, "Tuğan tel" Tatar Mədəniyyət Cəmiyyəti, Azərbaycan Tatar İcması, “Yaşlek” Azərbaycan Tatar Gəncləri Mərkəzi, Azərbaycan Gürcü İcması, Axısqa türklərinin "Vətən" Cəmiyyəti, Axısqa türklərinin "Axısqa" Mədəniyyət Mərkəzi, "Buduq" Mədəniyyət Mərkəzi, "Şahdağ" Mədəniyyət Mərkəzi, Avropa Yəhudiləri Dini İcması, Azərbaycan Dağ Yəhudiləri Dini İcması, Gürcü Yəhudiləri Dini İcması, "Azərbaycan-İsrail" Cəmiyyəti, Azərbaycan Yəhudi Qadınlar Təşkilatı, "İudaika" Beynəlxalq Cəmiyyəti, Alman Milli Mədəni Cəmiyyəti, "Xınalıq" Mədəniyyət Mərkəzi, “Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım” İctimai birliyi, Azərbaycan Polyak İcması və s. Bu təşkilatlar milli azlıqların sosial-iqtisadi və mədəni məsələlərinin həll olunmasında, onların yaşadıqları cəmiyyətə inteqrasiya olunmalarında mühüm rol oynayır.

**Konvensiyanın 8-ci maddəsinə dair**

Azərbaycanda milli-dini azlıqlar

Azərbaycanda Xristianlıq

Tarixən etnik-dini rəngarəngliyi, tolerant mühiti, multikultural cəmiyyəti ilə seçilən Azərbaycanda Xristianlıq qədim tarixi köklərə malikdir. Hələ eramızın ilk əsrlərində, İsa Məsihin həvariləri dövründə ölkə ərazisinə gələn erkən xristianların fəaliyyəti nəticəsində 313-cü ildə Xristianlıq Qafqaz Albaniyasının dövlət dininə çevrilmiş və müstəqil Alban Kilsəsi meydana gəlmişdir.

Xristian dininin ardıcılları ölkəmizin sosial-mədəni inkişafında öz töhfələrini vermişlər. Qafqazda ilk kilsə olan Kiş məbədi, Bakı, Şəmkir, Göygöl və Gəncədə almanların ucaltdığı kirxaların, Qusardakı katolik polyak kostyolunun, XIX əsrə aid çoxsaylı rus pravoslav məbədləri və digər bu kimi maddi mədəniyyət nümunələrinin mövcudluğu buna ən bariz nümunədir.

Müasir Azərbaycanda Xristianlıq bütün qolları ilə təmsil olunmuşdur. Burada həm pravoslavlar, həm katoliklər, həm qədim Şərq kilsəsinin – Alban kilsəsinin nümayəndələri olan udilər, həm də müxtəlif protestant denominasiyalar (təriqətlər), yeni dini cərəyanların ardıcılları sərbəst şəkildə öz inanclarını yaşayır, azad mühitdə öz dini ayinlərini yerinə yetirirlər.

Azərbaycanda Xristianlığın ən böyük qolu - pravoslavlıqdır. Bu qolun mənsubları saylarına görə müsəlmanlardan sonra gəlir və ölkə əhalisinin təqribən

2 faizini təşkil edirlər. Pravoslavlıq iki əsas kilsə ilə təmsil olunub – Rus Pravoslav Kilsəsi və Gürcü Həvari Avtokefal Pravoslav Kilsəsi.

Rus Pravoslav Kilsəsi ölkəmizdəki xristian konfessiyaları arasında say etibarilə üstünlük təşkil edir. XIX əsrdən ölkə ərazisində fəaliyyət göstərən həmin kilsənin yerli mənsubları Bakı və Azərbaycan Yeparxiyasına tabedirlər. Sözügedən dini təşkilatın nəzdində 5 kilsə fəaliyyət göstərir. Ölkəmizdə yaşayan bir çox rus, belarus və ukraynalı dini-etnik kimliklərini Rus Pravoslav Kilsəsi ilə eyniləşdirirlər.

Yerli rus pravoslav kilsələrinin nəzdində böyüklərin katexizasiyası (dini ehkamların öyrədilməsi) üzrə məktəblər də fəaliyyət göstərir.

Pravoslav qolunun digər mənsubları – gürcü pravoslavları Qax rayonunda məskunlaşmışlar. 2009-cu ildə əhalinin siyahıyaalınmasına əsasən, ölkəmizdə 9900 gürcü yaşayır. Qax rayonunda 4 gürcü pravoslav məbədi - Qax-İngiloy kəndində “Müqəddəs Giorgi”, Kötüklü kəndində “Müqəddəs Sameba”, Meşəbaş kəndində “Müqəddəs Mixeyil” və Əlibəyli kəndində “Müqəddəs Nino” kilsələri mövcuddur.

2009-cu ildə DQİDK-da iki gürcü pravoslav dini icması (Qax rayonu, Qaxingiloy kəndi “Müqəddəs Giorgi” kilsəsi gürcü pravoslav xristian və Qax rayonu, Əlibəyli kəndi “Müqəddəs Nino” kilsəsi gürcü pravoslav xristian dini icmaları) dövlət qeydiyyatına alınmışdır.

Respublikamızda pravoslavlardan başqa Xristianlığın qədim Şərq kilsələri qoluna aid edilən - Alban Həvari Avtokefal Kilsəsinin varisləri - udilər də yaşayır. Bu milli azlıq hazırda kompakt şəkildə Qəbələ rayonunun Nic kəndində, eləcə də Oğuz şəhərində məskunlaşmışdır.

Yuxarıda vurğuladığımız kimi, Alban Kilsəsi qədim Azərbaycan torpağında mövcud olmuş Qafqaz Albaniyası dövlətinin rəsmi kilsəsi idi. Özünəməxsus dini-tarixi yol keçən, zamanın müəyyən kəsimində tam müstəqil fəaliyyət göstərən və yerli dini-etnik koloriti özündə əks etdirən bu kilsə bütün tarixi çətinliklərə və ağır mübarizə şəraitinə rəğmən öz varlığını 1836-cı ilədək qoruya bilmişdir. Lakin 1836-cı ildə çar Rusiyasının tarixi ədalətsizliyi ilə, Alban Kilsəsi erməni Qriqorian kilsəsinin tabeçiliyinə verilərək onun fəaliyyəti dayandırılmışdır. Lakin Qafqaz Albaniyasının qədim sakinləri olan udilər keçmişdə üzləşdikləri çətinliklərə baxmayaraq dini-mənəvi dəyərlərini qoruya bilmişlər.

Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsi isə Alban Kilsəsinin dini ənənələrinin dirçəldilməsi üçün fürsət yaratmışdır. Belə ki, müstəqillik illərində Azərbaycan dövlətinin dəstəyi ilə udilərin məbəd və ziyarətgahları bərpa edilmiş, 2009-cu ildə Azərbaycan Respublikasının Alban-Udi Xristian və Oğuz şəhəri Alban-Udi Xristian dini icmaları DQİDK-da yenidən dövlət qeydiyyatına alınmışlar. Bu isə Alban Kilsəsinin bərpası istiqamətində atılan ilk addımlardan sayılmaqdadır.

Hazırda ölkə ərazisində iki alban-udi məbədi - Qəbələ rayonunun Nic qəsəbəsində Alban Avtokefal "Çotari" kilsəsi və Oğuz şəhərindəki "Kiski Qerqes" ziyarətgahı fəaliyyət göstərir.

Ölkəmiz üçün səciyyəvi olan xristian istiqamətlərindən biri də ruhani Xristianlıqdır. XIX əsrdə çar Rusiyasından Azərbaycana köçməyə məcbur qalmış köçmüş ruhani xristianlar ölkəmizin müxtəlif bölgələrində məskunlaşaraq, bir çox rus yaşayış məntəqələrinin əsasını qoymuş, tarixən tolerantlığı ilə seçilən azərbaycanlılarla xoş münasibətlər quraraq, cəmiyyətimizin ayrılmaz parçasına çevrilmişlər.

Günümüzdə ölkəmizdəki ruhani xristianlar iki dini qol üzrə təmsil olunublar: molokanlıq və duxoborluq. Molokanlar - Bakıda, Şamaxıda, Sumqayıtda, İsmayıllı rayonunun İvanovka kəndində, Qobustan rayonunun Hilmilli kəndində, Gədəbəy rayonunun Novoivanovka və Novosaratovka kəndlərində, duxoborlar isə Gədəbəy rayonunun Slavyanka kəndində məskunlaşmışlar. Ölkə üzrə molokan dua evlərinə ibadətə gələnlərin ümumi sayı 400 – 450 nəfərdir. Onların da mütləq əksəriyyəti yaşlı nəslin nümayəndələridir.

2009-cu ildə DQİDK-da 3 molokan dini icması (Bakı, Sumqayıt və Qobustanın Hilmilli kəndi) yenidən, İsmayıllı rayonunun İvanovka kəndindəki molokan dini icması isə 2015-ci ildə ilk dəfə dövlət qeydiyyatına alınmışlar.

Azərbaycanda ənənəvi xristian konfessiyalarından biri də katolisizmdir. XIV əsrin əvvəllərində katolik missionerləri Azərbaycanda fəaliyyətə başlamışlar. Onların bu fəaliyyəti XVII əsrdə özünün geniş inkişafını tapmışdır. Missionerlər o dövrdə Naxçıvanda on iki katolik monastırı açmışlar. Eyni zamanda katolik missionelərinin Bakıda, Şamaxıda, Gəncədə və Təbrizdə monastrları, kilsələri və məktəbləri fəaliyyət göstərirdi. XIX əsrdə çar Rusiyasının Azərbaycanı işğal etməsindən sonra katolisizm ölkəmizdəki inkişafının ikinci mərhələsinə qədəm qoymuş, Polşa üsyanı iştirakçılarının köçürülməsi və Bakıdakı neft bumu səbəbilə

katoliklərin sayı xeyli artmışdır. Hazırda katoliklər əsasən Bakı şəhərində yaşayırlar. Onların sayı təqribən 600 nəfərdir. Bu kontingentin də təqribən yarısını Polşa, İtaliya, Slovakiya və digər ölkələrdən olan əcnəbi vətəndaşlar təşkil edir. Qeyd edək ki, Azərbaycan dövləti ilə Müqəddəs Taxt-Tac arasında əlaqələr yüksək səviyyədə inkişaf edir, yerli katoliklərin dini tələbatı isə daim dövlətin diqqət mərkəzində saxlanılır. Məsələn, Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Bakının mərkəzində katolik kilsənin inşası üçün torpaq sahəsi ayrılmış və burada "Bakirə Müqəddəs Məryəm" katolik kilsəsi inşa edilmişdir. Açılışı 7 mart 2008-ci ildə gerçəkləşən bu kilsənin tikintisinə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycanda fəaliyyət göstərən digər konfessiyaların nümayəndələri də maddi yardım göstərmişlər.

Eyni zamanda, Roma Katolik Kilsəsi 2009-cu ildən Heydər Əliyev Fondu ilə sıx əməkdaşlığa başlamışdır. Hər iki təşkilat arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında memorandumun imzalanması iş birliyinə təkan verərək, müxtəlif birgə layihələrin həyata keçirilməsinə xidmət göstərmişdir.

Bundan əlavə, 2011-ci ilin aprelində "Azərbaycan Respublikası və Müqəddəs Taxt-Tac arasında Katolik kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında Saziş" imzalanmış və icmaya "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" statusu verilmişdir.

Həmçinin "Tereza Ana" adına katolik kimsəsizlər evinin fəaliyyət göstərməsi üçün yer ayrılmış və bu xeyirxahlıq ocağı 2006-cı ildən istifadəyə verilmişdir. Respublikamızda müxtəlif protestant cərəyanları da mövcuddur. Ölkəmizdə protestantlığın tarixi XIX əsrə gedib çıxır. Bazel missionerləri və alman piyetistləri Azərbaycana ilk gələn protestantlar sayılırlar. Alman piyetistləri ölkəmizdə məskunlaşaraq Anenfeld (Şəmkir), Yelenendorf (Göygöl) və digər yaşayış məskənlərinin inkişafına öz töhfələrini vermişlər.

Hazırda ölkə üzrə mövcud protestant denominasiyalar (təriqətlər) və onların üzvlərinin təqribi ümumi sayı 7000-ə yaxındır. Azərbaycan Respublikası DQİDK-də qeydiyyatdan keçmiş protestant təmayüllü dini icmalar bunlardır:

- "Yeni Həyat" Xristian İncil dini icması;
- Xilaskar Yevangelik Lüteranların Bakı dini icması;
- "Həyat sözü" Xristian dini icması;
- "Həyat Sözü-2" Sumqayıt xristian dini icması;
- Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icması;

- İncilə iman edən məsihçilərin “Nehemiya” dini icması;
- Bakı şəhəri Xristian-Baptist dini icması;
- “Şərqdə ulduz” Xristian İncil dini icması;
- “Yeddinci Günün Adventistləri” dini icması;
- Gəncə şəhəri Xristian-Baptist dini icması;
- Gəncə şəhəri “Yeddinci Günün Adventistləri” dini icması;
- Sumqayıt şəhəri Xristian-Baptist dini icması;
- Bakı şəhər Xristian Təmayüllü Dindarların dini icması.

Yerli protestant icmalarının nəzdində Xristianlığın əsaslarını öyrədən, Bibliyanı tədris edən müxtəlif istiqamətli dini tədris ocaqları da (“Alfa” kursları, Şənbə və Bazar günü məktəbləri, Bibliya Kolleci, Ruhani xidmət və Həmd məktəbləri) fəaliyyət göstərir.

Qeyd edək ki, ölkəmizdə yaşayan protestantların dini fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Məsələn, Bakının mərkəzində yerləşən tarixi Xilaskar Lüteran kilsəsi Prezident İlham Əliyevin 2010-cu il 15 mart tarixli Sərəncamına əsasən təmir edilmişdir. Hazırda bu binada Bazar günləri iki fərqli protestant cərəyanına mənsub icmalar (Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və “Yeni Həyat” dini icması) dini ayinlərini rahat və sərbəst şəkildə yerinə yetirirlər.

Dinşünaslıqda “marjinal katolik” dini cərəyanı kimi təsnifləndirilən “Yeni Apostol kilsəsi” də ölkəmizdə mövcud olan yeni xristian dini cərəyanları arasında yer alır. Onun mənsubları əsasən Bakı (70 nəfər) və Gəncə (10-15 nəfər) şəhərlərində yaşayırlar. Bu icma DQİDK-da 2002-ci ildə dövlət qeydiyyatına alınmışdır.

Respublika ərazisində “Yehovanın Şahidləri” təriqəti də mövcuddur. Dinşünaslıq elmində xristianlığın restovrasionist (erkən Xristianlığa qayıdışa çağıran təlim) qoluna mənsub olan bu təriqətin aktiv üzvlərinin sayı 1350 nəfərə, ümumi sayı isə 2700 nəfərə çatır.

Azərbaycanda yəhudilik

Yəhudilərin Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il öncəyə gedib çıxır. Əsrlər boyu ölkəmizdə yaşayıb yerli əhali ilə qaynayıb-qarışan, hətta qohumluq əlaqələri quran yəhudilərə qarşı xalqımız daim müsbət münasibət bəsləmişdir. Azərbaycanda yəhudilər əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərində, həmçinin Quba və Oğuz rayonlarında məskunlaşmışlar. Onlar sənətkarlıq, ticarət, həkimlik, müəllimlik və s. bu kimi sahələrdə çalışmışlar. Hazırda Azərbaycanda

yəhudilər 3 icma ilə - Dağ yəhudiləri, Gürcü yəhudiləri və Avropa yəhudiləri (aşkenazilər) icmaları ilə təmsil olunurlar.

Müstəqilliyimizin bərpa olunmasından sonra ölkəmizdə yaşayan milli azlıqların, o cümlədən yəhudilərin həyatında yeni mərhələ başlamışdır. Milli azlıqların hüquq və azadlıqlarının qorunmasına, onların mədəniyyətinin, dilinin inkişafına dövlət səviyyəsində dəstək verilməsi yəhudi icmaları qarşısında yeni imkanlar açmışdır. İcmalar dövlət qeydiyyatından keçərək sərbəst fəaliyyət göstərir, yeni dini ibadət yerləri, sinaqoqlar tikir, milli mərasim və bayramlarını qeyd edirlər. Hazırda paytaxt Bakı daxil olmaqla, Quba və Oğuz şəhərlərində 7 sinaqoq fəaliyyət göstərir. Onlardan 6-sı Dağ yəhudilərinə, 1-i isə Avropa və Gürcü yəhudilərinə aiddir. Quba rayonunda Dağ yəhudilərinin kompakt yaşadığı “Qırmızı Qəsəbə”də yəhudi uşaqları üçün “Şmirat a-Şem” adlı kollec açılmışdır. Burada yəhudi milli adət-ənənələrini tədris edən israilli müəllimlər çalışırlar.

2010-cu ilin oktyabr ayında bu qəsəbədə Dağ yəhudiləri dini icmasına məxsus 200 il yaşı olan sinaqoq əsaslı təmirdən sonra təntənəli surətdə istifadəyə verilmişdir. 2011-ci ilin aprel ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə icma üçün Bakıda yeni sinaqoq inşa olunmuşdur.

Azərbaycanda fəaliyyət göstərən “Gürcü yəhudiləri” isə əski zamanlardan Gürcüstan ərazisində məskunlaşan yəhudilərin nümayəndələridirlər. Sonrakı dövrlərdə onların bir hissəsi Azərbaycana köçmüş və əsasən Bakı şəhərində məskunlaşmışlar. Ötən əsrin 60-80-ci illərində Azərbaycanda yaşayan Gürcü yəhudilərinə aid yüzlərlə ailə İsrailə, Avropa ölkələrinə, ABŞ-a və digər ölkələrə köçərək həyatlarını orada qurmuşlar. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Gürcü yəhudi icmasının mənsubları arasında digər ölkələrə həmişəlik köçmək istəyənlərin sayında əhəmiyyətli dərəcədə azalma olmuşdur. Hazırda Gürcü yəhudiləri öz milli-dini bayramlarını maneəsiz qeyd edir, yəhudi uşaqları bərabərhüquqlu Azərbaycan Respublikası vətəndaşları kimi təhsil alırlar. 1995-ci ildən başlayaraq hər il yəhudi xalqının yeni ili sayılan “Roş ha-Şana” bayramı münasibəti ilə ölkə Prezidenti tərəfindən Azərbaycan Respublikasındakı bütün yəhudi icmalarına təbrik ünvanlanır. Ölkəmizdə Holokaust günü, yəni yəhudilərin II Dünya müharibəsi zamanı faşizm rejimi tərəfindən soyqırımına məruz qalması günü də yad olunur.

Digər yəhudi icması olan Avropa yəhudilərinin (aşkenazilərin) Azərbaycana gəlişi əsasən XIX əsrin ikinci yarısında Bakıda neft sənayesinin yüksək inkişafı dövrünə təsadüf edir. Bakıya gələn ziyalı Avropa yəhudiləri içərisində memarlar, müəllimlər, həkimlər, vəkillər və s. ixtisas nümayəndələri var idi. 1897-cı ildə Bakıda təqribən 2500-ə yaxın yəhudi yaşayırdı və onların əksəriyyəti Avropa yəhudiləri idilər. 1913-cü ildə isə bu say təqribən on minə çatırdı. Digər yəhudi icmalarında olduğu kimi, 1910-cu ildə Bakıda da sinaqoq inşa edilmiş və bu yer Avropa yəhudilərinin nəinki ibadət yerinə, eyni zamanda təlim-tədris ocağına çevrilmişdir. Şəhərdə "iyeşiva" adlı xüsusi yəhudi məktəbləri də fəaliyyət göstərirdi ki, bu tədris ocaqlarında "Tövrat", "Talmud" və "Mişna" kimi müqəddəs kitablar öyrədilirdi. Yəhudi qızları üçün də xüsusi gimnaziya və məktəblər açılmışdı. Tarixən Azərbaycan xalqı burada yaşayan yəhudilərə müsbət yanaşmış, dünyada antisemitizmin tüğyan etdiyi dövrlərdə belə onlara yad münasibət göstərməmişdir.

Bu gün də Azərbaycan Respublikasında aşkenazilər digər yəhudilərlə birgə, antisemitizmdən uzaq bir mühitdə yaşayırlar. Uzun illər öncə əsasən işləmək məqsədi ilə Azərbaycana gəlmiş bu yəhudilər ölkəmiz üçün layiqli vətəndaşa, Azərbaycan Respublikası isə onlar üçün əbədi Vətənə çevrilmişdir. Yəhudilərin əksəriyyəti respublikanın siyasi, iqtisadi, sosial, mədəni həyatında aktiv fəaliyyət göstərirlər. Hazırda Bakıda tanınmış yəhudilərin - Nobel mükafatı laureatı fizik Lev Landaunun, respublikanın əməkdar həkimi Solomon Qusmanın, Qarabağ müharibəsi qəhrəmanı Albert Aqarunovun və başqalarının yaşadıqları binalarda memorial lövhələr mövcuddur.

Hazırda Azərbaycan Respublikası DQİDK-də qeydiyyatdan keçmiş yəhudi dini icmaları bunlardır:

- Avropa Yəhudilərinin Bakı dini icması
- Bakı şəhəri Dağ Yəhudiləri dini icması
- Gürcü Yəhudilərinin Bakı dini icması
- Sumqayıt Yəhudiləri dini icması
- Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icması
- Azərbaycan Yəhudiləri dini icması
- Oğuz şəhəri Yəhudi dini icması
- Bakı şəhəri "Yerusəlimin işığı" yəhudi dini icması
- Gəncə Yəhudiləri dini icması

Yəhudi icmaları Azərbaycan Respublikasının ən fəal dini icmalarından sayılırlar. “Soxnut” yəhudi agentliyi, “Coynt” və “Vaad-L-Xatzola” adlı yəhudi ənənəsinin qorunması və mühafizəsi ilə məşğul olan komitələr, dini məktəblər - iyeşivalar, yəhudi icmalarının mədəniyyət mərkəzləri, “Yeva” adlı qadın cəmiyyəti və digər qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Bundan başqa, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ivrit dili tədris edilir.

2003-cü ilin mart ayının 9-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində  açılmış Avropa və Gürcü yəhudilərinin sinaqoqu öz möhtəşəmliyinə görə Avropada ən böyük sinaqoqlardan sayılır. Bundan başqa 2010-cu ilin oktyabr ayının 4-də Bakının Əhmədli qəsəbəsində “Heydər Əliyev” Fondunun maliyyə dəstəyi ilə “Xabad-Or-Avner” yəhudi təhsil mərkəzi açılmışdır. Açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İsrailin sefard yəhudilərinin baş ravvini Şlomo Amar və digər yüksək vəzifəli şəxslər iştirak etmişlər. 1994-ci ildə Bakıda 46 saylı məktəbin nəzdində olan yəhudi sinifləri açılmışdır. Məktəbdə 100-ə yaxın yəhudi sagird  təhsil alır. Onlara Hibri  dili ilə yanaşı təhsil nazirliyinin nəzərdə tutduğu bütün fənlər tədris olunur.

Ümumilikdə ölkəmizdə dövlət qeydiyyatından keçmiş İslam təmayüllü dini qurumların sayı 682, dövlət qeydiyyatından keçərək hüquqi status əldə etmiş qeyri-islam təmayüllü dini qurumların sayı isə 39-dur.

DQİDK-nin apardığı araşdırmalardan bəlli olur ki, onların təxminən 96%-ni müsəlmanlar, 4%-ni qeyri-müsəlmanlar təşkil edir. Dövlət qeydiyyatından keçmiş dini icmaların statistikası göstərir ki, ölkədəki müsəlman əhalinin qeydiyyatdan keçmiş dini qurumların sayına nisbəti 1:15000 olduğu halda, bu nisbət qeyri-müsəlman əhalidə 1:10000-dir. Bu isə onu göstərir ki, müsəlmanlarla müqayisədə qeyri-islam təmayüllü dini qurumların say nisbəti daha artıqdır.

Həmçinin Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi İslam dini mərkəzində — Qafqaz Müsəlmanları İdarəsində birləşdiyi halda qeyri-islam dini icmalarının xaricdə fəaliyyət göstərən dini mərkəzlərə tabe olmaq və tabeliyini dəyişdirmək hüququ var. Həmçinin, təşkilati mərkəzləri xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər. Hazırda qeyri-islam dini qurumlarının böyük əksəriyyətinin, o cümlədən Rus Pravoslav, Katolik, Lüteran, Gürcü-pravoslav kilsələrinin dini mərkəzləri xaricdə yerləşir və bu

kilsələrdə, eləcə də protestant və yəhudi dini icmalarında dini ayinlərə rəhbərlik edən din xadimləri xaricdəki mərkəzlərdən təyin olunurlar.

Bundan əlavə, Azərbaycanda mövcud olan dini mərkəz və idarələr xarici ölkələrdəki müvafiq mərkəzlərlə işgüzar əlaqələr saxlayır, beynəlxalq dini tədbirlərdə yaxından iştirak edirlər.

Ölkədəki dini durumun sabit və tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması həmin dini qurumlara öz ibadət evlərində hüquqi şəxs kimi sərbəst fəaliyyət göstərməyə, dini ayinləri yerinə yetirməyə, dini bayramlar və mərasimlər keçirməyə əlverişli şərait yaradır. Onların azad şəkildə ibadəti təmin olunur.

Bütün dini icmalara qeydiyyat zamanı bərabər şərait yaradılmış, onların sənədlərinin hazırlanması, qəbulu, qanunvericiliyə uyğunluğunun yoxlanılması və dövlət qeydiyyatının aparılması lazımi səviyyədə təşkil olunmuşdur. Hazırda dini qurumların dövlət qeydiyyatı prosesi davam etdirilir. Dini icmalar və ibadət evləri ilə yanaşı, respublika ərazisində xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən ortodoks kilsələri yanında bazar günü məktəbləri, protestant icmalarının Bibliya kursları, yəhudilərin ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları və s. fəaliyyət göstərir. Həmçinin, ölkəmizdə krişna şüuru və bəhai dini icmaları da mövcuddur və onlara məxsus ibadət evləri fəaliyyət göstərir.

**Konvensiyanın 9-cu maddəsinə dair**

Hazırda Azərbaycan radiosunda kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən müntəzəm radio verilişləri aparılır.

"Samur" ləzgi dilində, "Qusar" (azərbaycan və ləzgi dillərində) qəzetləri, “Çıraq” və “Alam” jurnalları, talış dilində "Tolışi sədo", “Tolışon sədo” və "Söz" jurnalı (azərbaycan və talış dillərində), xınalıq dilində “Xınalıq” qəzeti (Quba), "Şəlalə" (Qax rayonu) qəzetində gürcü dilində səhifə, Qırmızı Qəsəbədə (Quba rayonu) yəhudi icmasının “Birlik” “Yedinstvo” qəzeti və “Qudyal” jurnalı çap olunur. "Dənge kürd" (“Kürdün səsi”) qəzeti "Ronayi" Kürd Mədəniyyət Mərkəzinin, "Vestnik", “Oko” qəzetləri Azərbaycan Rus İcmasının, "Sodrujestvo" - "Sodrujestvo" Cəmiyyətinin, "Akkord" - “Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım” İctimai Birliyinin, “Vısnik” - Azərbaycanda Ukrayna İcmasının müntəzəm mətbuat orqanlarıdır.

**Konvensiyanın 11-ci maddəsinə dair**

“Kütləvi informasiya vasitələri haqqında” Qanunun 6-cı maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində kütləvi informasiya vasitələri dövlət dilindən istifadə edirlər. Azərbaycan Respublikası vətəndaşlarının kütləvi informasiyanın istehsalı və yayımında Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərdən, habelə dünyada geniş yayılmış digər dillərdən istifadə etmək hüququ vardır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli qərarı ilə təsdiq edilmiş “Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”nın tələbinə əsasən milli azlıq, azsaylı xalq və milli azlıqların nümayəndələri olan Azərbaycan Respublikası vətəndaşlarının, doğumu Azərbaycan Respublikasının ərazisində qeydə alınmış və daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin müraciətləri əsasında onlara adların, ata adlarının və soyadların verilməsi və dəyişdirilməsi həmin qaydaya uyğun olaraq həyata keçirilir.

Ötən dövr ərzində qanunvericiliyin göstərilən tələbinə riayət olunaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi barədə milli azlıqların nümayəndələrinin (ləzgi, rus, avar, gürcü, kürd, ərəb, başqırd, yəhudi, ukraynalı milliyətlərindən olan) müraciətləri heç bir məhdudiyyət qoyulmadan təmin edilmişdir.

**Konvensiyanın 12-14-cü maddələrinə dair**

Təhsil hüququnun təmin olunması barədə

“Təhsil haqqında” Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili - Azərbaycan dilidir.

Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

Eyni zamanda həmin Qanunun 5.2-ci maddəsinə uyğun olaraq dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial

vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində milli (etnik) azlıqların dillərinin öyrənilməsi və tədrisi sahəsində ardıcıl iş aparılır. Ümumtəhsil məktəblərinin I-IV siniflərində milli azlıqların kompakt yaşadıqları bölgələrdə həftədə 2 saat onların dillərinin tədrisinə vaxt ayrılır.

2003-cü ildə milli azlıqların dilinin tədrisi ilə bağlı “Azsaylı xalqların yaşadıqları regionlarda fəaliyyət göstərən məktəblərin I-IV sinifləri üçün ana dili proqramları” çap olunub istifadəyə verilmişdir. 2006-cı ildə ana dilini dərindən öyrənən bütün milli azlıqların I sinifləri üçün nəzərdə tutulan “Dilimizi öyrənək” adlı dərslik, eləcə də ləzgi, talış, kürd, tat, avar, saxur dillərində “Ana dili” (II sinif), “Talış dili” (III, IV s.) dərslikləri nəşr edilib istifadəyə verilmişdir. Milli azlıqların dillərinin tədrisinə kömək məqsədilə çap olunmuş “Talış dilinin tədrisinə dair”, “Talışca-azərbaycanca məktəbli lüğəti”, ”Ləzgicə-azərbaycanca-rusca lüğət”, “Tat dilində “Əlifba” dərsliyinə dair metodik rəhbərlik” adlı tədris-metodik ədəbiyyat da məktəblərin istifadəsindədir. 2010, 2013 və 2015-ci illərdə “Udi dili” (“Nanay muz” II, III, IV s.) dərslikləri çap edilmişdir. Hazırda udi dilində I sinif “Əlifba” dərsliyi çapa hazırlanır.

Ümumiyyətlə, “Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin qorunması və inkişafı üçün dövlət yardımı haqqında” Prezident Fərmanına (1992) əsasən milli-etnik azlıqların dillərində indiyədək 16 adda dərslik və dərs vəsaiti yaradılmış və nəşr edilərək təhsil müəssisələrinin istifadəsinə verilmişdir. Milli azlıqların dillərində tədris resurslarının yaradılması, nəşri və təminatı sahəsində iş davam edir. Qarşıdakı illərdə ölkədə yaşayan milli azlıqların dillərində yeni kurrikulum əsasında tədris resurslarının hazırlanması və nəşri nəzərdə tutulmuşdur.

Milli azlıqların kompakt yaşadığı regionlarda fəaliyyət göstərən kolleclərdə ibtidai sinif müəllimliyi ixtisası üzrə tədris proqramlarına (kurrikulumlarına) “Milli azlıqların dillərinin tədrisi metodikası” mövzuları daxil edilir ki, bu da həmin regionlarda milli azlıqların dilləri tədris edilən ümumtəhsil məktəblərinin ibtidai siniflərində uyğun dilləri tədris etmək üçün müəllim kadrlara olan ehtiyacın təmin olunmasına şərait yaradır.

Milli azlıqların dillərini öyrədən müəllimlər yerli təhsili idarəetmə orqanlarının razılığı əsasında işə qəbul edilirlər. Həmçinin, təlim gürcü dilində olan ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu da Zaqatala və Qax rayonlarının təhsil şöbələri tərəfindən həyata keçirilir.

2011-ci ildən başlayaraq ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada aparılır. Son 6 ildə milli azlıqların kompakt yaşadığı rayonlarda fəaliyyət göstərən ümumtəhsil məktəblərinin müəllim kadrlara olan ehtiyacının təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında" 14 aprel 2010-cu il tarixli qərarı ilə kənd rayonlarında yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan və 3 (üç) il müddətində həmin təhsil müəssisəsində fəaliyyətini davam etdirən yaşı 35-dək olan gənc mütəxəssislərə kommunal xərclərin ödənilməsi üçün 60 manat verilməsini və 100 manat əmək haqqına əlavə edilməsini nəzərdə tutan həvəsləndirmə tədbirləri tətbiq edilir. Dövlət sifarişi əsasında hər il həvəsləndirmə tədbirlərinin tətbiq edilməsi ilə milli azlıqların yaşadığı ayrı-ayrı rayonlarda, o cümlədən Quba, Qusar, Lerik, Astara rayonlarında kənd məktəblərinin müəllim kadrlara olan ehtiyacını təmin etmək mümkün olmuşdur.

Eyni zamanda, milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmalarının konkret yollarından biri rəsmi dövlət dili olan Azərbaycan dilinin öyrənilməsidir. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu milli azlıqların bu ehtiyacını ödəmək məqsədilə onlar üçün pulsuz Azərbaycan dili kursları təşkil etmişdir

(Maddələrlə bağlı statistik məlumat Əlavə 3 və Əlavə 4-də).

**Konvensiyanın 15-ci maddəsinə dair**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, vətəndaşların şəxsiyyət vəsiqəsində milli mənsubiyyət göstərilmədiyinə görə azlıqların dövlət strukturlarında təmsilçiliyini əks etdirən rəsmi statistika aparılmır. Lakin məlumdur ki, milli azlıqlar ölkənin qanunverici, icraedici və məhkəmə orqanlarında kifayət

qədər geniş təmsil olunurlar. Dövlət strukturlarında milli azlıqların nümayəndələri birinci və ya ikinci şəxslər, idarə rəisləri, şöbə müdirləri, rayon icra hakimiyyəti başçıları və müavinləri və s. kimi çoxşaxəli rəsmi vəzifələrdə çalışırlar. Eyni zamanda, milli azlıqların kompakt yaşadığı bölgələrin dövlət strukturlarında və yerli özünüidarəetmə orqanlarında milli azlıqların təmsilçiləri mütləq əksəriyyət təşkil edirlər. Milli azlıqların qeyd olunan hakimiyyət strukturlarında belə təmsil olunmaları onların qərarların qəbul edilməsi prosesinə təsir imkanlarını artırır.

2015-ci ilin dekabr ayında BBMM nəzdində Məşvərət Şurası yaradılmışdır. Məşvərət Şurasında milli azlıqların nümayəndələri də təmsil olunmuşlar. Məşvərət Şurasının fəaliyyətinin əsas istiqamətlərindən biri milli azlıqların ölkənin ictimai-mədəni həyatında səmərəli iştiraklarını təmin etməkdir.

Bununla yanaşı, bütün regionlarda olduğu kimi, milli azlıqların yaşadığı regionlarda da tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasına Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən xüsusi diqqət yetirlir.

Ölkənin kənd yerlərində tibbi kadrlarn çatışmazlığını nəzərə alaraq Azərbaycan Tibb Universitetinin məzunlarının bilavasitə vakant yerlərə təyinatla göndərilməsi işi də davam etdirlilir. 2010-cu ildən başlayaraq məzunların 75%-nə bölgələrə təyinat verilmişdir. Milli azlıqların yaşadığı regionların kadr potensialının artırılmasına xüsusi diqqət yetirilmişdir. 2015-ci ildə 250 azərbaycanlı tibb işçisi xarici ölkələrin aparıcı klinikalarında təkmilləşdirmə kurslarında ixtisaslarını artırmışdır. Bunların 22-si milli azlıqların nümayəndələridir.

Eyni zamanda, hazırda ədliyyə orqanlarında, o cümlədən rəhbər vəzifələrdə milli azlıqların 250-dən çox nümayəndəsi çalışır.

## III Hissə

Hesabat dövründə Azərbaycanda yaşayan milli azlıqların sosial-iqtisadi və mədəni problemlərinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (Şura) yerli və xarici ölkə QHT-ləri üçün maliyyə yardımı müsabiqələri təşkil etmişdir. 2011-ci ildən bəri Şura tərəfindən milli azlıqlara yönəlik və yerli QHT-lər tərəfindən icra olunan 15 layihəyə 95500 manat (60 000 ABŞ dolları) ayrılmışdır. Bu layihələr milli azlıqların mədəni irsinin qorunmasına, icmaların fəaliyyətlərinə, yubiley tədbirlərinin, forum və qurultaylarının keçirilməsinə, icmaların sosial-iqtisadi inkişafı məsələlərinə,

intellektual səviyyələrinin artırılmasına və asudə vaxtlarının səmərəli təşkil edilməsinə həsr olunmuşdur.

Layihələr çərçivəsində "Kürd yazıçılarının əsərləri" adlı kitab tərtib olmuş və "Müasir Polşa Ədəbiyyatı" adlı kitab tərcümə edilərək nəşr olunmuşdur. Bakıda və İsmayıllıda Rusiyadan dəvət olunmuş nümayəndə heyətinin iştirakı ilə Rus İcmasının III Forumu və Azərbaycanda Rus icmasının fəaliyyətinin 20 illik yubileyi, Bakıda Axısqa türklərinin Vətən İctimai Birliyinin IX qurultayı, Bakıda Kürd yazıçılarının qurultayı keçirilmişdir. Bundan başqa Axısqa türklərinin etnik və mədəni həyatı "Səs" TV vasitəsi ilə işıqlandırılmiş və Bakı- Sofiya radio debatları təşkil olunmuşdur.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün onların hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması məcburi deyil və QHT-lər dövlət qeydiyyatına alınmadan da sərbəst fəaliyyət göstərə bilərlər.

2011-2016-cı illər ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu və digər donorlar tərəfindən milli azlıqların hüquqlarının təşviqi mövzusunda bir sıra layihələr maliyyələşdirilmişdir.

Bütövlükdə son 5 ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşən layihələr Azərbaycanda yaşayan milli azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına, mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə, bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına yönəlmişdir. Həmçinin milli azlıqlara həsr olunmuş hesabatlar, təqdimatlar və kitablar nəşr olunmuş, televiziya verilişləri radio debatları hazırlanmışdır. Bununla yanaşı, milli azlıqların yaşadıqları regionlarda kompyuter kursları və mədəni tədbirlər təşkil olunmuşdur. Həmçinin "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa görə mətbu nəşrlərin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Azərbaycanda milli azlıqların 15-dək mətbu nəşri (talış, kürd, rus, ləzgi, avar, yəhudi, bolqar, axısqa və s.) Ədliyyə Nazirliyində qeydə alınmış və hazırda maneəsiz fəaliyyət göstərir. Hal-hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış milli azlıqların 50 qeyri-hökumət təşkilatları mövcuddur.

Ölkədə vətəndaş cəmiyyətinin təşviqi məqsədilə dövlət ardıcıl tədbirlər görməyə davam edir. "Şəxsi elektron pəncərə" elektron informasiya sisteminin

yaradılması qeyri-hökumət təşkilatları ilə dövlət orqanları arasında informasiya mübadiləsini təmin edir.

Eyni zamanda, 2014-cü il 1 iyun tarixində qüvvəyə minmiş “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanuna uyğun olaraq, QHT-lərin mərkəzi icra hakimiyyəti və yerli icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən İctimai Şuraları yaradılmışdır. Bu da öz növbəsində QHT-lərin özləri tərəfindən formalaşdırılan İctimai Şuraların bütün səviyyələrdə ictimai nəzarətin təmin olunması və qərarların qəbulunda iştirak etməsinə imkan yaratmışdır.

Qanunun aliliyinin təmin edilməsini, hüquqi, dünyəvi, demokratik dövlət qurmaq niyyətini bəyan etmiş Azərbaycan Respublikasında hər bir şəxsin yaşadığı və olduğu yer üzrə qeydiyyata alınması, sənədləşdirilməsi milli və etnik mənsubiyyət üzrə aparılmır və qanunvericilik aktlarında belə norma müəyyən edilməmişdir.

Polis əməkdaşları tərəfından insan hüquq və azadlıqlarının pozulması halları barədə xidməti yoxlamalar aparılmaqla ciddi tədbirlər görülür. İbtidai araşdırma və təhqiqat zamanı cinayət prosesi iştirakçılarına öz ana dilindən və ya tərcüməçinin köməyindən pulsuz istifadə etmək hüququ verilmişdir. Polisə gətirmə, saxlanılma və məsuliyyət tədbirlərinin tətbiqi prosesində qanunçuluğa ciddi riayət olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi gündəlik nəzarətdədir.

Müvəqqəti saxlama yerinə gətirilmiş bütün şəxslər kameraya yerləşdirilməzdən əvvəl həkim müayinəsindən keçirilir, onların tibbi yardım barədə müraciətləri, eləcə də belə yardımdan imtina etmələri müvafiq jurnalda əks olunur. Saxlanılan şəxslərin gətirildiyi andan hüquqi (vəkil) və zəruri halda tibbi (həkim) yardım ilə təmin edilməsi ilə bağlı ölkə qanunvericiliyinin və beynəlxalq hüquq normalarının müddəalarına ciddi riayət edilir. Müvəqqəti saxlama yerlərinin fəaliyyətini tənzimləyən daxili normativ sənədlər xarici ekspertlərin tövsiyələri də nəzərə alınmaqla 2012-ci il 22 may tarixdə qəbul edilmiş «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Qanuna uyğunlaşdırılmışdır.

Hüquq muhafizə orqanları tərəfindən orqan və hissələrdə qanunçuluğun qorunması, o cümlədən insan hüquq və azadlıqlarına ciddi riayət olunması, bu sahədə işin təşkilində mühüm rolu olan Milli Fəaliyyət Planının aidiyyəti müddəaları tam icra edilir. Müvafiq məsələlərlə bağlı daxil olan şikayətlər hərtərəfli

və obyektiv araşdırılır, təsdiqlənmiş faktlar üzrə vətəndaşların pozulmuş hüquqlarının bərpası təmin edilir.

Polis əməkdaşlarının davranışı bütün şəxslərin hüquqlarına tam hörmət edilməsi prinsipi əsasında həyata keçirilir. İnsan hüquqlarının qorunması həm də Polis Akademiyasının tədris proqramına salınmışdır. Akademiyanın «Dövlət və hüquq nəzəriyyəsi» kafedrasının nəzdində yaradılmış «Hüquq klinikası»na müraciət edən, müdafiəyə ehtiyacı olan şəxslərə peşəkar hüquqi yardım göstərilməklə zəruri sənədlərin tərtibatında köməklik göstərilir.

Bundan əlavə, insan hüquqları sahəsində biliklərə yiyələnmənin stimullaşdırılması, bu sahədə şəxsi heyətin məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə əməkdaşlar arasında “İnsan hüquqları sahəsində biliklərin qiymətləndirilməsi üzrə” müsabiqələr keçirilir.

Digər tərəfdən, polisin öz vəzifəsini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq və dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqazidd əməllərdən qoruması kimi mühüm müddəa Azərbaycan Respublikasının “Polis haqqında” Qanunun 5-ci maddəsində təsbit olunmuşdur.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 7-ci maddəsində Qanun qarşısında bərabərlik prinsipi və Cinayət-Prosessual Məcəlləsinin 11-ci maddəsində hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipi də əksini tapmışdır.

Bundan əlavə, Azərbaycanda yaşayan milli azlıqların nümayəndələrindən olan kürd, ləzgi, talış, avar, rus, yəhudi və digərləri daxili işlər orqanlarında da xidmət aparır və onlar şəxsi heyətin 6 %-ni təşkil edirlər.

Sığınacaq axtaran şəxslərin arasında irqi, etnik və ya milli mənsubiyyətə görə hər hansı ayrı-seçkiliyə yol verilməməsi, rəsmi olaraq qaçqın kimi tanınmayan və müdafiəyə ehtiyacı olan şəxslərə münasibətdə əlavə müdafiə formalarının tətbiq edilməsi istiqamətində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əməkdaşlıq əlaqələri bu gün də yüksək səviyyədədir. Bütövlükdə, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş

“Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” çərçivəsində görülən işlər BMT-nin, Avropa Şurasının tövsiyələrinə uyğun planlı şəkildə davam etdirilir.